UOT 32
https://doi.org/10.59849/2710-0820.2024.2.187

**Naziyə Məmmədova**
*AMEA Qafqazşünaslıq İnstitutu,*
*Nəşriyyat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri,*
*Bakı Dövlət Universitetinin dissertantı,*
*Azərbaycan*
*mamedovanaziya@mail.ru*

# GÜRCÜSTANDA ERMƏNİ TƏŞKİLATLARININ AZƏRBAYCANA VƏ AZƏRBAYCANLILARA QARŞI FƏALİYYƏTİ

***Açar sözlər:*** *erməni təşkilatları, Gürcüstan, Azərbaycan, təxribat, iddialar, azərbaycanlılar*

**Giriş**

Müasir dünyada çoxmillətli ölkələr mövcuddur. Çoxmillətli cəmiyyət bir tərəfdən özündə müsbət cəhətləri cəmləşdirərək multikultural mühitin inkişafına təkan verir. Lakin digər tərəfdən isə bu tip ölkələr milli və etnik azlıqların cəmiyyətə inteqrasiyası prosesində problemlərlə üzləşə bilirlər. Belə ölkələrdən biri də Gürcüstandır.

Gürcüstanda bir sıra xalqların nümayəndələri yaşayırlar: azərbaycanlılar, ermənilər, ruslar və s.

*“Gürcüstanda yaşayan sayca ən böyük xalqlardan biri azərbaycanlılardır. Azərbaycanlılar əsasən Kvemo-Kartli (Borçalı), Kaxeti, Şida-Kartli bölgələrində, Acarıstan Muxtar Respublikasında, həmçinin Tbilisi, Rustavi və Batumi şəhərlərində yığcam halda yaşayırlar”.* [6, s.132]

Ermənilər isə əsasən Gürcüstanın Samsxe-Cavaxeti, Abxaziya kimi bölgələrində [10] sıx məskunlaşmışlar, həmçinin Tbilisi şəhərində çoxsayda yaşamaqdadırlar. [6, s.199]

Bu iki milli azlığın özünə məxsus xüsusiyyətləri və fərqləri mövcuddur. Bunları aşağdakı kimi səciyyələndirmək olar: Azərbaycanlılar və ermənilər fərqli etnik mənsubiyyətə sahibdirlər. Azərbaycanlılar türk etnik mənsubiyyətinə aid edilir, ermənilər isə hind-avropa etnik qrupuna mənsubdurlar. Bununla yanaşı dini inanclarda fərqlidir: ermənilər əsasən monofizit xristiyan dininin mənsubudurlar. Azərbaycanlılar isə müsəlmandırlar, əsasən şiə və sünni məzhəblərinə mənsubdular. Lakin tarix elmləri doktoru Ş.Məmmədova hesab edir ki, *“dini yaxınlıq və tarixi əlaqələrin qədimliyi sosial-siyasi inteqrasiyaya az təsir göstərir, xristian-ermənilər və müsəlman-azərbaycanlıların xristian-gürcü cəmiyyətinə inteqrasiyasında dini faktor önəmli rol oynamır”.* [3, s.150]

Bu iki xalqın münasibətlərinə tarixi yaddaş amili daha çox təsir göstərməkdədir. Ermənilər və azərbaycanlılar elə bir tarixi yaddaşa sahibdirlər ki, bunun sayəsində münasibətlər çox zaman gərgin, mübahisəli və konfliktli olmuşdur. Bu amil iki cəmiyyətin arasında əlaqələrdə və münasibətlərdə həlledici rol oynayır.

Tarix elmləri doktoru Ş.Məmmədova belə bir nəticəyə gəlir ki, *“tarixi yaddaşları erməni və azərbaycanlı icmalarını eyni dərəcədə ehtiyatlı olmağa və qarşılıqlı münasibətlərdə müəyyən balansı qorumağa məcbur edir”.* [3, s.149]

Beləliklə, Azərbaycan və Ermənistan arasındakı münasibətlər Gürcüstanda yaşayan ermənilər və azərbaycanlılara təsir etməkdədir.

Bu fərqlər iki cəmiyyətin bir-birinə nisbətən fərqli mədəni, dini, siyasi və tarixi səbəblərdən gəlir və bu qarşılıqlı münasibətlərini əsasını təşkil edir.

Gürcüstanda yaşayan milli azlıqlar arasında təşkiltladırılma işində ən çox “uğuru” olan ermənilərdi. Ermənilərin Gürcüstanda fəaliyyət göstərən bir sıra qeyri-hökümət təşkilatlatı və birlikləri mövcuddur. Bu təşkilatlar vaxtilə

[10] Bölgənin digər rayonları olan Axalsıx, Aspindza, Adıgen rayonları Ahıska türklərinin ana vətənləri hesab olunur. 1944-cü ilə qədər ərazidəki əhalinin əksəriyyətini Ahıska türkləri təşkil edirdilər. 1944-cü ildə Ahıska türklərinin deportasiyasından sonra boşalan ərazilərə tədricən ermənilər və gürcülər yerləşdirilmişdirlər.

Gürcüstanın daxili ictimai siyasətinə təsir etmək gücünə malik idilər.

Erməni təşkilatlarının yaranma dövrləri aşağıdakı kimi bölmək məqsədə uyğundur: 1) XIX sonu -XX əsr əvvəli – ilk erməni təşkilatları yaranma dövrü; 2) XX əsrin 90-cı illəri – müstəqiliyyini bərpa etmiş Gürcüstanda sepataçı təşkilatların fəallaşması; 3) 2000-ci illərin əvvələri – Qızılgül inglabından sonra erməni təşkilatlarının milli azlıqların hüquqlarını müdafiəsi adı altında gürcü hakimiyyətinə yönəlmiş ittihamları; 4) müasir dövr - hakim "Gürcü Arzusu" partiyasın dövrü – ərazi və torpaq iddiallarının ikinci plana keçməsi, daha çox maddi-mənəvi və tarixi abidələrə iddiaların qabarması, "kilsə və patriarxlar" münaqişəsi və Gürcüstanın müttəfiqləri ilə münasibətləri pozmaq cəhdləri.

Bu dövr bögüsündə əsasən məqalədə erməni təşkilatlarının azərbaycanlılara və Azərbaycana qarşı yönəlmiş fəaliyyəti araşdırılacaq.

**1.XX əsrin əvvələrində erməni təşkilatlarının azərbaycanlılara qarşı fəaliyyəti**

Tarixi mənbələrdən məlumdur ki, Qafqazda ermənilərə məxsus və ya Ermənistan adlı dövlət mövcud olmamışdır.

*"XIX əsrin ortalarından etibarən ermənilərin Gürcüstana köçürülməsi geniş vüsət alıb. Onlar hiyələgərliklə çar Rusiyasının vəsaitindən istifadə ediblər. Gəlmə ermənilər Gürcüstanın Qara dəniz sahillərinə, Cavaxeti, İmereti və başqa ərazilərə yerləşdiriliblər. Bu yerləşdirmədə çar Rusiyası sərhədlərinin mühafizəsini, regionda demoqrafik şəraiti dəyişdirib daha çox özündən asılı salmaq siyasəti yürüdürdüsə, ermənilər isə gürcüləri zəiflətmək, torpaqlarına, mal və mülkünə yiyələnmək məqsədi güdüblər. Ermənilər Gürcüstan ərazisində sadəcə olaraq məskunlaşma ilə kifayətlənməyiblər, imperiya həyatı üçün əhəmiyyətli olan bütün sahələrə nəzarəti öz əllərinə almağa çalışıblar və çox zaman buna nail olublar. Yüksək dövlət qulluğunda olan ermənilər köçürülmüş ermənilərin fəaliyyəti üçün əlverişli şərait yaradıblar".* [1, s.72]

Ermənilər təşkilatlanmağa başladılar. *"Gürcüstanda yerlərini möhkəmləndirdikdən və gürcülərin hesabına varlandıqdan sonra ermənilər özlərinin terror-siyasi təşkilatlarını qurmaq, planlarını reallaşdırmaq üçün addımlar atmağa başlayıblar".* [1, s.73]

Gürcüstandakı erməni təşkilatlarının yaranma tarixi çox sayda amillərə əsaslanır.

Gürcüstanda ilk erməni təşkilatları XIX əsrin sonu – XX əsrin əvvələri əsasən siyasi məqsədlərlə yaranmışdır. Bunlar "Qnçak" və "Daşnaksütyun" təşkilatları idi. Bu təşkilatların yaranma məqsədləri uydurma "Böyük Ermənistan" qurmaq üçün zəmin hazırlayıb, bunun üçün aborigen əhalini kütləvi şəkildə məhv etməklə etnik təmizləməyə məruz qoymaqdan ibarət olub. Armenakan, Qnçak və Daşnaksütyun kimi erməni təçkilatlar XX əsrin əvvəllərində Tiflis quberniyasında törədilən qarışıqlıqdan istifadə edib azərbaycanlıların, az sayda gürcü və ermənilərin yaşadıqları Borçalı qəzasını, türk-müsəlmanların, gürcülərin və ermənilərin yaşadıqları Axalkələk qəzasını ayırıb yeni Aleksandropol quberniyası yaratmağa çalışırdılar.

*"1917-ci il inqilabından sonra Borçalı Gürcüstan, Azərbaycan və Ermənistan arasında döyüş meydanına çevrildi. 1918-ci ildə Qafqazda üç müstəqil dövlətin yaranmasından sonra Borçalı əraziləri uğrunda mübarizə daha da kəskinləşdi. İrəvan torpaqlarını aldıqdan sonra Borçalınıda ələ keçirmək istəyən ermənilər uğursuz oldular, onun işğalı ilə bağlı hazırlıqlara başladılar. Ermənilərin ərazi iddiaları Ermənistan-Gürcüstan müharibəsinə gətirib çıxartı".* [10, s.121]

*"1918-ci ilin yayından etibarən Borçalıda yaşayan ermənilər üsyana başladılar. Şulaver kəndi yaxınlığındakı Azərbaycan kəndləri yandırıldı, evlər talan edildi, binalar yandırıldı. İmir və Saraclı kəndlərinin sakinləri taxıl biçimi üçün nəzərdə tutulmuş ərazilər talan edilmişdir. Yuxarı Saral və Görarxı kəndlərinin mal-qarası, onların ərzaq anbarları, kənd təsərrüfatı alətləri və inventarları ermənilər tərəfindən oğurlanmışdır. Avqust ayında Aşağı Saral kəndindən 130 baş mal-qara və Saraçlıdan 30 baş mal-qara talan edilmişdi".* [2, s.22]

*"Arzu olunan nəticələrə nail ola bilməyən və Türkiyədə fəaliyyətini davam etdirmək imkanını itirən daşnaklar öz fəaliyyətlərini Cənubi Qafqaza, çar Rusiyasının ərazisinə köçürdülər. Daşnakların türklərə olan bütün nifrəti burada yerli müsəlman əhaliyə, Azərbaycan (Borçalı) türklərinə qarşı yönəldi".* [10, s.121]

*"Daşnaksütyun" partiyasının sədri Ovannes Kaçaznuninin rəhbərlik etdiyi Ararat hökuməti Azərbaycanın - Qarabağ, Zəngəzur, Gürcüstanın - Borçalı, Axılkələk və Ahıska bölgələrinin erməni əraziləri olduğunu bəyan edərək onların Ermənistana birləşdirilməsini tələb etdi. Ermənistan ordusu Gürcüstanla sərhədi keçərək Borçalının bir hissəsi olan dağ Borçalısına hücum etdi".* [10, s.121]

Buna baxmayaraq, Daşnaksütyun Borçalının Tiflis quberniyasından ayrılması cəhdlərini sonralar da davam etdirdi. 1920-ci ilin noyabrında Ermənistan və Gürcüstan arasında imzalanan sazişə əsasən Lori bitərəf zonasına nəzarət etmək hüququ Gürcüstana verildi.

Bu dövrdə yaradılan, separatçılıq tərəfdarı olan dərnəklərin məqsədilərinə çatmaq üçün başlıca vasitələri sırasına əvvəlcədən müəyyənləşdirilmiş yerlərdə qiyam qaldırmaq və gəncləri silahlandırmaq kimi radikal addımlar atmaq daxil idi. Rusiya və Türkiyə ermənilərinin əlaqələndirmə mərkəzi Tiflis hesab edilirdi. Təşkilatların fəaliyyəti başlıca olaraq Tiflisdən idarə olunur, silah almaq üçün tələb edilən pullar da oradan göndərilirdi. Beləliklə, indiki Gürcüstan ərazisi silah və sursat anbarı funksiyasını yerinə yetirib.

Məqsədə nail olmağın vasitələrindən biri terror idi. Erməni terror təşkilatları yaranan gündən müxtəlif dövlətlərə və ya siyasi qruplara qarşı təxribatlar törədərək, hər zaman təhlükə mənbəyinə çevrilmişdir. Bu təşkilatlar, müxtəlif metodlardan istifadə edərək, təbliğat, qətillər, qonşu dövlətlərin ərazi bütövlüyünə müdaxilələr və terror aktları ilə tanınmışdır.

*"Terror fəaliyyətlərində erməni kilsəsi müəyyən rol oynayırdı. Qafqaz canişinliyinə Tiflis quberniyasından 1904-cü il mayın 8-də göndərilən məktubda terror komitəsinin Eçmiədzində sinod üzərində təsiri, Eçmiədzin terror komitəsinin sinod üzvlərinə yaxın olduğu yazılır, Eçmiədzinin komitəyə tabe olmayacağı təqdirdə kilsə xadimlərinin öldürəcəyi barədə komitə üzvlərinin silahla hədələdikləri, sinodun terror komitəsinə pul verdiyi vurğulanırdı".* [1, s.98]

Erməni terrorçularının qurbanları təkçə türk diplomatları deyil, həmçinin Azərbaycanlı dövlət xadimləri də olub. 1920-ci ildə AXC nümayəndələri F.Xoyski, X.Xasməmmədov, H.Ağayev erməni terrorçularının hücümü nəticəsində həlak olublar. Qeyd etmək lazımdır ki, erməni terrorçularının qurbanları arasında gürcülər də var idi. Məsələn, 1904-cü ildə Qarsda polis işçisi Xerxulidze erməni terrorçuları tərəfindən öldürüldü. Daşnaklar belə hesab edirdilər ki, bu şəxs erməni fəaliyyətlərinə mane olur. [1, s.99] 1905-ci ildə knyaz M.A.Nakaşidze ermənilərin sui-qəsdi nəticəsində öldü. 1905-ci martın 16-da daşnak terrorçuları gürcü knyaz Mikeladzeni də öldürdülər. [1, s.101]

Beləliklə, XX əsrin əvvəllərində yaranmış siyasi məqsədlərlə yaranan erməni təşkilatları erməni millətçiliyinin inkişaf etdiyi dönəmlərdə yaranmışdır və Gürcüstandakı erməni cəmiyyətinin siyasi hədəflərini təmsil etmək məqsədi ilə fəaliyyət göstərmişdir.

**2.Müasir dövrdə erməni təşkilatlarının Azərbaycana və azərbaycanlılara qarşı fəaliyyəti**

Sovet dövründə erməni terrorçularının fəaliyəti azaldı. Lakin *"Ermənistan SSR daşnak siyasətini davam etdirərək bolşevik Rusiyasının dəstəyi ilə 1921-ci ilin fevralında Gürcüstana hücum etdi. Fevralın 15-də Baş nazir N. Jordaniya bəyan etdi ki, Ermənistan bizə məkrli şəkildə hücum etməklə müharibə və qan bayrağını yenidən qaldırıb və sərhədlərimizə basqın edib. Gecə vaxtı onların alayları bizim müşahidə qüllələrimizə hücuma keçiblər. Onlar Borçalının cənub-şərqini tutublar. Ermənistanı idarə edən dairələr öz rəngini onlara sərf etdiyi kimi dəyişdirirlər, lakin qətiyyən öz ruhlarını dəyişdirmirlər və insanlıqdan kənardırlar. Onlar Gürcüstanın müstəqilliyi ilə barışa bilmirlər və hətta bu gün də Gürcüstanın dövlətçiliyini tanımırlar. Bolşevik Ermənistanı daşnakların yolu ilə gedir və onların siyasətini davam etdirir. Bununla yanaşı Borçalı, Axalkələk və Duşetidə dövlət əleyhinə qiyamlar qaldırıldı. Qiyamların əsas təşkilatçıları və iştirakçıları ermənilər idi."* [1, s.160]

Sovet İttifaqının dağılması ilə bağlı dəyişən siyasi mənzərə ilə birlikdə, müstəqiliyini bərpa etmiş Gürcüstanın siyasi-ictimai istiqamətlərini dəyişdi.

Keçən əsrin sonlarında sovet rejiminin dağılması nəticəsində müstəqiliyini bərpa etmiş Gürcüstan bir sıra probləmlərlə üzləşmişdi. Həm dərin sosial-iqtisadi böhranla üzləşən Gürcüstan, həm də ictimai-siyasi çətinliklərlə üz-

üzə qalmış oldu. *"Bu illərdə iqtisadi tənəzzül Gürcüstanı sarsıtmışdı."*[7, s.31] Hakimiyyətə qatı millətçilərin gəlməsi, iqtisadiyyatın zəifləməsi etnik qruplar arasında mübarizələrin artmasına səbəb oldu.

Hakimiyyətə gələn millətçi görüşlərə sahib olan Z.Qamsaxurdia ölkədə yaşayan etnik azlıqları "qonaq" adlandıraraq cəmiyyətdəki gərginliyi daha da artırmış oldu. [12, s.209] Separatçılıq hərəkatları demək olar ki ölkənin hər bir tərəfində hökum sürürdü. Bir tərəfdən Rusiyanın dəstəyi ilə Abxaziya Müxtariyyəti ilə Cənubi Osetiyada (Sxinvali bölgəsi) müharibə başlaması, digər tərəfdən isə Gürcüstanda yaşayan ermənilərin Cavaxeti bölgəsini ayırmaq və Ermənistana birləşdirmək istəyi Gürcüstanı vətəndaş müharibəsinə sürüklədi və hakimiyyət dəyişikliyinə gətirib çıxartı.

Qeyd etmək lazımdır ki o dövrdə Gürcüstanda yaşayan azərbaycanlılarda çətinliklərlə üzləşdi. Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent V.Ömərov yazir: *"Sovet dövründə əhalisinin 50 faizi azərbaycanlılardan ibarət olan Dmanisi (Başkeçid) və Bolnisi rayonlarının əhalisi də "Gürcüstan gürcülər üçündür!" şüarı ilə çıxış edən Z.Qamsaxurdia rejiminin təzyiqlərinə məruz qaldı. Onlar zorla öz evlərindən qovuldular. Yerli idarəetmə strukturlarında yüksək vəzifələr tutunlar isə hamısı öz vəzifələrindən çıxarıldılar. 1989-cu ildə azərbaycanlı-gürcü qarşıdurması baş verdi. Z.Qamsaxurdianın millətçilik siyasəti sayəsində minlərlə azərbaycanlı Gürcüstanı, öz dədə-baba torpaqlarını tərk etdi. 1990-cı ildə Azərbaycan dilində olan 32 kənd, çay, dağ adları gürcü adları ilə əvəz olundu".* [7, s.27] Lakin Gürcüstan azərbaycanlıları heç vaxt separatçı çıxışlara əl atmamışlar. Sovet hakimiyyəti illərində də azərbaycanlılar və gürcülər arasında sıx dostluq münasibətləri mövcud olub.Ermənilər isə hər zaman müxtəlif vasitələrlə münasibətləri korlamağa çalışıblar. Azərbaycanlıların gürcülərə dost münasibəti həm toplum olaraq, həm də fərdi səviyyədə özünü göstərib. Məsələn, 20 yaşlı azərbaycanlı əsgər Rahib Məmmədov hərbi xidmət keçdiyi Gürcüstanın Xobi rayonundakı Çaladidi kəndində böyük fədakarlıq və qəhrəmanlıq göstərərək təbii fəlakət zamanı 28 nəfər gürcünü sel daşqınından xilas edib, özü isə qəhrəmanlıqla həlak olmuşdu. [1, s.478] Bundan başqa Gürcüstanın ərazi bütövlüyünün qorunmasında 500-dən artıq azərbaycanlı iştirak edib. Onlardan bir qismi şəhid olub, bəziləri isə göstərdikləri rəşadətə görə təltif ediliblər. 2017-ci ildə Gürcüstanda nəşr edilən və müəllifi David Maysuradzenin olduğu "Vətən oğulları" adlı kitabda Abxaziya və Sxinvali regionunda abxaz və osetin separatçılarına qarşı vuruşan Gürcüstan azərbaycanlılarının şücaətindən söhbət açılır. Kitabda Gürcüstan uğrunda döyüşən azərbaycanlı gənclər hörmətlə yad olunur, Ənvər Hümbətov, Qəhrəman Musayev, Zaur Abdullayev, Mustafa Novruzov kimi müharibədə döyüşənlər haqqında qısaca məlumat verilir. Müəllif yazır ki, böyük siyasətin hərəkətverici qüvvəsi vətənpərvərlikdir. Bu sənin vətəninə, vətəninin torpağına, insanlarına olan sevgidən yaranan bir hissdir. [1, s.480] Ermənilər isə əksinə Abxaziyada separatçılar tərəfində vuruşmuş və "qəhramanlıqları" hakkında gürcü müəllifləri qeyd edirlər. [14]

Belə ki, Gürcüstan müstəqilliyin ilk dövrü separatizm hərəkatının güclənməsi və ölkə ərazisinin parçalanması ilə nəticələnmişdi.

Məhz bu dövrdə Gürcüstanın ağır vəziyyətindən istifadə edərək Gürcüstandakı erməni icmasının nümayəndələri və təşkilat rəhbərləri hərəkətə keçdilər. Ən qatı erməni millətçi təşkilatlarının yaranmasıda bu dövrə təsadüf edir. "Cavaxk hərakatı", "Virk", "Paravants" kimi təşkilatlar yarandı. Bəzi təşkilatlar "etnik kimliyi qorumaq və müdafiə etmək" məqsədiləri yaransalarda əsas hədəf və məqsədləri Ermənistanın genişləndirilməsi ehtifa edirdi və bu da öz növbəsində Gürcüstanın ərazi bütövlüyünə təhdid yaradırdı. Bu təşkilatların əsas məqsədi bölgəyə müxtariyyət tələb edərək daha sonra Ermənistana birləşdirmək idi.

Tədqiqatçı V.Ömərov bunu Qarabağ məsələsi ilə də izah edir*: "Bu hadisələrdə 1988-ci ildə Azərbaycanın Dağlıq Qarabağda hissəsindəki proseslərlə oxşarlıq göz qabağındadır. Fərq ondadır Gürcüstanda qarşıdurmalar açıq hərbi toqquşmaya keçməyib. Lakin şübhə yoxdur ki, Cavaxeti və Qarabağ vahid ssenari üzrə "hazırlanırdı".* [17, s.41] *"Cavaxetidə separatçı ermənilər tərəfindən irəli sürülən tələblərlə XX əsrin 80-ci illərində Azərbaycanın Dağlıq Qarabağ regionu ilə bağlı irəli sürülən tələblər demək olar ki, eynidir".* [7, s.106]

Sovet İttifaqının süqutuna qədər ermənilər yenidən hücum edərək Borçalı türklərinə (azərbaycanlılara) qarşı hərəkətə keçdilər. Beləliklə, 1980-ci illərin sonlarında başlayaraq ermənilər tərəfindən başladılan etnik təmizləmə nəticəsində Borçalının indiki Ermənistan ərazisində yerləşən hissəsində yaşayan bütün azərbaycanlılar öz vətənlərindən didərgin düşüblər.

*"Ermənilər azərbaycanlıların sıxışdırılması və hədə-qorxu siyasətinə də böyük töhfələr vermişlər. 1990-cı ilin cəmi bir neçə ay ərzində Marneuli rayonunun azərbaycanlı əhalisinə qarşı bir çox terror aktları törədilmişdir. Martın 10-da Sadaxlı kənd sakini oğurlanaraq Ermənistana aparılmışdı. Aprel ayında Qasımlı kənd sakini, avqustun 3-də isə Arıxlı kənd sakini qətlə yetirilmişdi. 1993-cü ilin 11 avqust Marneulidə şəhərin mərkəzi bazarında ermənilər tərəfindən təşkil edildiyi güman edilən partlayış baş verib. Bu terror aktı nəticəsində 2 nəfər ölüb, 20-dən çox insan yaralanıb. Elə həmin il Kəpənəkçi kəndinin iki sakini girov götürüldü və Ermənistana qaçırıldı".* [9, s.154]

XX əsrin sonlarında Gürcüstandakı erməni təşkilatlarının bir hissəsi siyasi məqsədlər güdərək, erməni icmasının və Ermənistanın maraqlarını təmsil etmək, siyasi təşəbbüslərə dəstək verərək və ya özünəməxsus siyasi hədəflər üçün işləyərək fəaliyyət göstərirdi. Bu təşkilatlar həm də Gürcüstandakı siyasi proseslərdə iştirak edərək təsir etməyə yönəlmişdir.

Gürcüstanda baş vermiş dövlət çevrilişi nəticəsində hakiməyyətə gələn Eduard Şevardnadze ölkədə hökm sürən qeyri-sabitliyi və böhran vəziyyətini aradan qaldırmaq cəhd etdi. Ən əsasıda Z.Qamsaxurdiadan fərqli olaraq milli azlıqlarla bağlı siyasətində dəyişikliklər etdi. Onun hakimiyyəti dövrü zamanı həmçinin erməni radikalların daha aktiv olan bölgəyi mərkəzə tabe etmək nisbətən alındı. *"Ermənilərin muxtariyyət və ya Ermənistana birləşmə iddiaları Gürcüstanın keçmiş prezidenti Eduard Şevardnadzenin dövründə nisbətən passiv xarakter daşıyırdı. Çünki, Eduard Şevardnadze tarazlaşdırılmış siyasət yürütməyə çalışır".* [7, s.104]

2003-cü ildə Gürcüstanda baş vermiş Qızılgül inqlabı həm daxili, həm də xarici siyəsəti dəyişdirdir. M.Saakaşvilinin rəhbərlik etdiyi yeni hakimiyyət Qərb yönümlü siyasətə istiqamətləndi. Yeni hakimiyyətin qarşısında duran məsələrdən biridə milli azlıqların gürcü cəmiyyətinə inteqrasiya prosesinin sürətlənməsi idi.

2000-ci illərdə Gürcüstandakı erməni ictimai təşkilatlar əhalisinin hüquqlarını müdafiə etmək və onların haqqları qorunması məsələlərinə diqqət çəkmək məqsədi ilə yaranmışdır. Bu təşkilatlar vətəndaş cəmiyyəti və sosial sahələrin inkişafı göstərməsi elan olunsada əslində siyasi məsələlərə daha çox meyl edirdilər.

Ziddiyyətli məsələ ondadı ki erməni icmasını nümayəndələri ermənilərin "diskriminasiya" qarşı çıxaraq, özləri digər xalqlara eyni münasibət göstərirlər. Məsələn yaşadıqları ərazilər əslində 1944-cü ilə qədər Ahıska türklərinin vətəni olmuş və onlarıq geri dönüş cəhdlərinə qarşı çıxırlar.

*"Ermənistan Respublikası Ahıska türklərinin Samsxe-Cavaxetiyə qayıtmasının əleyhinədir. Bu baxımdan üç amilin rol oynadığı iddia edilə bilər. Bunlardan başlıcası bu bölgənin geostrateji əhəmiyyətidir. Samsxe-Cavaxeti bölgəsi Ermənistan Respublikasını dəniz yolu ilə dünya və quru yolu ilə Rusiya ilə birləşdirir. Digər tərəfdən isə Cavaxeti bölgəsində yaşayan ermənilərdir. Daim nəzərə alınmalı olan məsələ ondan ibarətdir ki, Cavaxeti erməniləri Ermənistanın Gürcüstanla münasibətlərinin müəyyənedici elementinə çevriliblər. Həmdə Cavaxeti bölgəsindən Ermənistana köçmüş təxminən 100.000 ermənin Ermənistanın daxili siyasətinə təsiridir."* [11, s.27]

Məsələn bu təşkilatlardan bəziləri Gürcüstanda erməni əhalisinin hüquqlarını müdafiə etmək, erməni mədəniyyətini və tarixini qorumaq, və ya erməni icmasının maraqlarını təmsil etmək məqsədilə fəaliyyət başlasalarda lakin sonra fərqli məqsədlərə xidmət edirdilər.

Digər təşkilatlar isə siyasi məqsədlər güdərək, Gürcüstandakı siyasi mənzərəni dəyişdirməyə çalışmışlar. Həmin təşkilatlar müxtəlif istiqamətdə və metodlardan istifadə edərək siyasi təşəbbüslər, mitinqlər, demostrasiyalar, və hətta potensial olaraq, hərbi fəaliyyətlərədə baş vururdular.

Məsələn 2000-ci illərin əvvəllərində bölgədə "Cavaxeti Gənclər İdman İttifaqı" təsis edildi.

*"Bölgədəki erməni təşkilatlarının Gürcüstana qarşı düşmən mövqeyi xüsusilə 2008-ci il-*

*də Rusiya ilə Gürcüstan arasında baş verən münaqişə zamanı açıq-aşkar ortaya çıxdı. O dövrdə baş verən hadisələrdə digər bir erməni təşkilatı olan "Vahid Cavaxk"la yanaşı "Cavaxetiya gənclik-idman ittifaqı" da radikal mövqe nümayiş etdirmiş və hətta bu təşkilatın üzvləri qeyri-qanuni silahlanmaya cəhdlər göstərmişdilər. Təşkilatın üzvlərindən biri olan Vaahn Çaxalyan bu hadisələrlə əlaqədar həbs edilmişdi. M.Saakaşvilinin hakimiyyətdən getməsindən sonrakı dövrdə də Rusiya-Gürcüstan münasibətlərindən asılı olaraq bölgədəki ermənilərin "fəallığı" artıb azalmağa başlamışdır".* [7, s.105]

Təşkilat 2008-ci ildən parçalanmağa başlamış, sonra isə dağılmışdı.

M.Saakşvilinin hakimiyyətindən sonra "Gürcü Arzusu" partiyası seçkilərdə qalib gələrək iqtidar olmağa nail oldu. İlk başlarda daxili və xarici siyasət istiqamətlərində dəyişikliklər baş vermədi.

Artıq əvvəlki kimi açıq separatçı çıxışlar etmək olmurdur. Milli azlıqlar siyasətindədə müsbət dəyişikliklər olmuşdur. Bunu bir çox beynəlxalq qurumların hesabatlarıda təsdiq edir. [13]

Bu dövrdə ermənilərin kəskin ərazi iddiaları maddi və mədəniyyət abidələrinə iddiallarla əvəzləndi.

Erməni təşkilatların əsas hədəfi bu dönəmdə maddi və mədəniyyət abidələrinə iddialar qaldırılması olmuşdu. Rəsmi Ermənistan dünyaya tək çıxışı olan Gürcüstanla münasibətlərinin gərginləşməsini istəmirdi. Buna görədə iddialarını kilsə və onun rəhbəri vasitəsilə söyləməyə başladı. Beləliklə, gürcü tədqiqatçısı Ç.Bedianın vurğuladığı kimi kimi "kilsə savaşları" başladı. [19]

Demək olar ki, erməni təşkilatlarının hamısı hər il aprel ayının 24 qondarma "erməni soyqırımının" tanınması ilə bağlı müxtəlif növ tədbirlər keçirirlər və Türkiyənin Gürcüstandakı səfirliyi qarşısında aksiyalar keçirilər.

Gürcü milli təfəkküründə ermənilərə münasibət birmənalı deyil. Tarixi iddialar və separatçı çıxışlardan başqa əksər emənilərin gürcü cəmiyyətini onlara qarşı ehtiyatlı davranmağa sövq edir. [4]

Erməni təşkilatlarının fəaliyyəti haqqında danışarkən Ermənistanında təsiri böyük rol oynadığını vurğulamaq lazımdır. Tədqiqatçı-alim fəlsəfə üzrə fəlsəfə doktoru *V.Ömərov "Ermənistan-Gürcüstan münasibətlərinin zaman-zaman gərgin olduğunu və hətta qarşıdurma və müharibə yaşandığını göstərir. Bu qarşıdurmaların bir sıra səbəbləri olmuşdur, o cümlədən ərazi iddiaları, dini abidələrin mənimsənməsi, siyasi-ictimai məsələlər və digərləri".* [4]

Eyni zamanda 2000-ci illərin ortalarında ermənilərin fəaliyyətini daha çox Azərbaycanla Gürcüstan arasında yaranmış mütəffiqlik əlaqələrini pozmağa yönəlmişdir.

Gürcüstanda yaşayan ermənilərdən fərqli olaraq azərbaycanlılar əsrlər boyu gürcülərlə dost, müttəfiq, bir-birilərinə arxa və dayaq olublar. Azərbaycan və gürcü xalqlarının mehriban qonşuluq və dostluq münasibətləri qədim tarixə malikdir.

Azərbaycan və Gürcüstan münasibətlərini strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəldmiş ölkələrdir. Məlum olduğu kimi, Azərbaycan–Gürcüstan münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəlib. İkitərəfli münasibətlər çoxşaxəli xarakterlidir. Bütün sahələrdə faydalı qarşılıqlı tərəfdaşlıq təmin edilib. Azərbaycan Respublikasının təşəbbüsçüsü və əsas iştirakçısı olduğu bütün layihələrdə Gürcüstan da yaxın tərəfdaş kimi təmsil olunur.

S.Həbibbəyli belə hesab edir ki, *"ölkələr arasındakı münasibətlərin belə yüksək səviyyədə inkişafına səbəb olan amillərdən ən başlıcası, regionda həyata keçirilən enerji layihələridir. Hər iki ölkənin maraqlarına cavab verən regional layihələr icra olunur ki, bu da həm ayrılıqda iştirakçı dövlətlərin, həm də ümumilikdə regionun rifahına xidmət edir. Azərbaycan istehsalçı, Gürcüstan isə tranzit ölkə kimi Avropanın enerji təchizatında mühüm rol oynayır. Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, ən nəhayət Cənub Qaz Dəhlizi kimi ümumi enerji və nəqliyyat layihələrində Azərbaycan və Gürcüstan birgə iştirak edir".* [8, s.111-112]

Öz növbəsində, Ermənistan apardığı təcavüzkar xarici siyasətinin nəticəsində, regionda reallaşan bütün beynəlxalq layihələrdən kənarda qalmışdır. Ermənistan isə yürütdüyü təcavüzkarlıq siyasəti nəticəsində beynəlxalq layihələrdən kənarda qalıb. Bütün bunlar regiondakı

sabitliyə, sülhə və təhlükəsizliyə ən böyük təhdid olan Ermənistanı və erməniləri narahat edir.

*"Gürcüstan və digər ölkələrdəki erməni təşkilatları ətraf mühit üçün mənfi nəticələrə istinad edərək Gürcüstan ərazisindən neft-qaz kəmərinin çəkilməsinə qarşı fəal kampaniyaya başlamışlar. Ancaq bu addımlar da uğursuz oldu. Buna baxmayaraq, Ermənistan hökuməti və Gürcüstandakı erməni qrupları zaman-zaman Azərbaycan və Gürcüstan arasında yaranmış qarşılıqlı faydalı münasibətlərin pozulması istiqamətində fəallaşırlar".* [15, s.57]

"Azərbaycan – Gürcüstan münasibətlərinin çiçəklənməsi 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycanın təbii ehtiyatlarını dünya bazarına çıxarmaqla sürətli inkişaf yoluna qədəm qoydu. İqtisadi cəhətdən Azərbaycanın müstəqilliyini təmin edən bu müqavilə həm də iştirakçı və tranzit potensialına sahib ölkələrlə faydalı qarşılıqlı əməkdaşlıq qurulması baxımından olduqca əhəmiyyətli idi. Ermənilər müqavilənin imzalanmaması üçün özlərinə məxsus çirkin əməllərindən çəkinmirdilər. Həmin illərdə Erməni Milli və Strateji Tədqiqatlar Mərkəzi "Əsrin müqaviləsi" mövzusunda dəyirmi masa keçirdi. Dəyirmi masada "Armat" adlı iqtisadi mərkəzin rəhbəri Edvard Ağacanovun çıxışı xüsusilə diqqət cəlb edirdi. Bu şəxsin çıxışının məğzi ondan ibarət idi ki, "Əsrin müqaviləsi"nin imzalanmasına yol verilməməli, erməni hakim dairələri, bütün siyasi partiyalar səfərbər olmalı və müqavilənin imzalanmasının qarşısının alınması üçün çalışmalıdırlar. O, qarşıda dayanan məqsədləri belə müəyyənləşdirirdi: "Əsrin müqaviləsi"nə daxil olan xarici şirkətlərlə əlaqə yaradıb, onları nəyin bahasına olursa-olsun, hətta lazım gələrsə təzyiqlər vasitəsilə bu sazişdən imtina etmələrinə nail olmaq, iqtisadi cəhətdən iflasa uğrayacaqlarına inandırmaq". [1, s.489]

"Ermənilərin mətbu orqanlarında da bu mövzuda geniş qarayaxma kampaniyası başlamışdı. Gürcüstandakı və xaricdəki erməni təşkilatları əsas ixrac neft boru kəmərinin keçəcəyi yerlərdə guya ekologiyaya ziyan vurulacağını "əsas gətirərək" çirkin kampaniya aparırdılar. Lakin bu fəaliyyətlər iflasa uğradı və əsas ixrac neft boru kəməri Gürcüstandan keçdi. Bununla da Gürcüstan iqtisadiyyatı dirçəlmiş oldu, gürcü xalqının sosial rifah halı yaxşılaşdı. Ermənistanın və Gürcüstandakı erməni təşkilatlarının Azərbaycan – Gürcüstan münasibətlərinin pozulmasına hesablanmış addımları sonrakı illərdə də zaman-zaman atıldı və indi də davam etməkdədir. Məlumdur ki, Azərbaycan və Gürcüstan bir sıra beynəlxalq və regional layihələrdə uğurla əməkdaşlıq edirlər. Belə regional layihələrdən biri isə Bakı – Tbilisi – Qars dəmiryolu xəttidir. Cənubi Qafqazda sabitliyin əsas qənimi olan Ermənistan layihənin planlaşdırıldığı ilk gündən etibarən hər şəraitdən yararlanmağa çalışaraq müxtəlif mövqelər ortaya qoymağa başladı. Ermənistan ilk oncə, dəmiryolu xəttinin reallaşmasının mümkünsüzlüyünü iddia edən informasiyalar yaymağa çalışdı. Həmin günlərdə Rusiya və işğalçı Ermənistanın mediasında Gürcüstanda yenicə iqtidara gələn Gürcü Arzusu koalisiyasının Bakı – Tbilisi – Qars dəmiryolu layihəsini dəstəkləmədiyi barədə müəyyən məlumatlar dərc olundu. Eyni zamanda müvafiq nəqliyyat xəttinin səmərəli olmadığı və Gürcüstanın iqtisadi infrastrukturu üçün risklər doğurduğu iddia edildi. Ermənilərin reallıqdan uzaq olan fikirləri yalnız layihəni gözdən salmağa hesablanmışdı. Bakı –Tbilisi – Qars layihəsinin icrasına böyük miqdarda vəsait yatırılıb və bu nəqliyyat xəttinin işə düşməsi ilk növbədə, Gürcüstan ərazisindən tranzit daşımalarının həcmini dəfələrlə artırılması, bu dövlətin büdcəsinə ildə yüz milyonlarla dollar həcmində əlavə vəsaitin daxil olması deməkdir. Bu isə gürcü xalqının həyat şəraitinin yaxşılaşdırılması üçün əlavə imkanların yaradılması demək idi. Ermənilərin bu layihənin əleyhinə çıxmaları gürcü xalqına və Gürcüstana qarşı olmaları anlamına gəlirdi. [1, s.490]

Azərbaycan – Gürcüstan münasibətlərinin pozulması üçün çalışan qüvvələr kimi Ermənistan dövlət və hökumət nümayəndələri, Ermənistan informasiya vasitələri, erməni təşkilatları, Gürcüstandakı Ermənistan səfirliyi, Gürcüstanda fəaliyyət göstərən erməni təşkilatları, Gürcüstanda yaşayan ermənilər, Gürcüstanda fəaliyyət göstərən erməni kilsəsi göstərilir. [1, s.511-512]

Azərbaycan – Gürcüstan münasibətlərində ermənilərin hədəfi olan əsas istiqamətləri belə göstərmək olar: 1*) Azərbaycan – Gürcüstan arasındakı enerji sahəsindəki münasibətlərə gah kölgə salmağa çalışır, gah da alternativ la-*

*yihələrlə Gürcüstanın diqqətini cəlb etməyə cəhd etmələri; Azərbaycan – Gürcüstan sərhədinin təhlükə potensialının olması ilə bağlı uydurulmuş informasiya yaymaları; informasiya vasitələri ilə Azərbaycan əleyhinə təbliğat aparırmaları və s.* [1, s.511-512]

Beləliklə, ermənilər Gürcüstan hökumətinin Azərbaycan və Türkiyə ilə sıx əməkdaşlığına ehtiyatla yanaşırlar.

İkinci Qarabağ müharibəsi zamanı Gürcüstanda yaşayan ermənilərin təxribatçı fəaliyyəti diqqətdən qaçmır. 2020-ci il sentyabrın 27-də Azərbaycan ordusunun Qarabağda Ermənistanın hərbi təcavüzünə qarşı əks-hücum əməliyyatı başladı. Beləliklə İkinci Qarabağ müharibəsi başlamış oldu. 44 gün davam edən müharibə Azərbaycan Respublikasının rəşadətli Ordusunun Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə parlaq qələbəsi ilə başa çatmışdı. Müharibə ilk günlərindən həm dünya, həm də Gürcüstan mediasının diqqət mərkəzində idi. Rəsmi Tbilisi Qarabağda vəziyyətin gərginləşməsini təhlükəsini təkcə müharibə edən dövlətlərə deyil, bütün regionda sabitliyi pozmaq təhdidi kimi hesab edib. [16, s.107]

Qeyd edək ki, Gürcüstan münaqişənin mövcudluğu dönəmində hər zaman neytrallıq statusunu qoruyub saxlaya bilmişdi. Siyasi şərhçilər Gürcüstan hakimiyyətinin bəyanatlarında ehtiyatlılığı haqlı, Ermənistan-Azərbaycan münaqişəsi məsələsində bitərəfliyi isə Gürcüstan üçün alternativsiz hesab edirdilər.

Lakin *"etnik münaqişələrin tənzimlənməsinə münasibətdə də Ermənistan və Gürcüstan fərqli mövqe tuturlar. Gürcüstan ərazi bütövlüyü prinsipini, Ermənistan isə millətlərin öz müqəddəratını təyinetmə prinsipini müdafiə edir. Gürcüstan və Ermənistan Cənubi Qafqazdakı münaqişələrə fərqli yanaşırlar. Məlum olduğu kimi, separatizm nəticəsində Cənubi Qafqazda Gürcüstan və Azərbaycan ərazilərində münaqişələr baş vermişdir. Nəticədə Gürcüstanın Sxinvali, Abxaziya bölgələri nəzarətdən çıxdı və Gürcüstan indi də həmin ərazilərinə nəzarət edə bilmir".* [5, s.83]

Gürcüstanın həm İrəvanla, həm də Bakı ilə mehriban qonşuluq münasibətlərini qoruyub saxlaması və münaqişə tərəflərindən heç birinə dəstək verməməsini ən doğru istiqamət kimi qəbul edirdilər. Hətta rəsmi Tbilisi İrəvanla Bakı arasında vasitəçi rolunu oynamaq niyyətini dəfələrlə dilə gətirmişdir. Belə ki, 2020-ci il sentyabrın 30-da Gürcüstanın Baş naziri Giorgi Qaxariya bunu Brüsselə rəsmi səfəri zamanı bildirmişdi. Daha sonra Gürcüstanın Prezidenti Salome Zurabişvili oktyabrın 5-də "Rustavi-2" telekanalına müsahibəsində ölkənin neytralitetini qorumağa hazır olduğunu bildirmiş və Tbilisi şəhərini ATƏT-in Minsk qrupunun görüş yeri kimi təklif etmişdir.

Gürcüstan Qarabağ münaqişəsində həmişə bitərəf qalmasına baxmayaraq, Gürcüstanda yaşayan ermənilər dövlətin rəsmi mövqeyinə məhəl qoymadan dövlət əleyhinə fəaliyyət göstərirdilər.

Erməni təşkilatlarının Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etmələrini və müxtəlif tədbirlərin keçirilməsini, Qarabağda azərbaycanlıların qətlində iştirak edən erməni M.Avakyanın büstünün açılmasını və s. buna misal kimi göstərmək olar.

Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili 2020-ci il sentyabrın 28-də bəyan etmişdir ki, *"Dağlıq Qarabağ Azərbaycan Respublikasının suveren ərazisidir və bunu heç nə dəyişməyəcək. Mənim mövqeyim tamamilə aydındır. Ərazi vahid dövlət prinsipinə əsaslanır".*[11]

Bu çıxışdan sonra M.Saakaşvili anti-erməni ifadələrinə görə itihham edildi, və guya fəxri doktoru olmuş İrəvan Dövlət Universiteti onu bu adından məhrum edib.

Həmin il oktyabrın 1-də Gürcüstanın erməni icmasının 300 etirazçısı Gürcüstanın "Mtavari arxi" telekanalının binasının qarşısında mitinq keçirərək, Azərbaycan və Ermənistan arasında davam edən müharibənin guya "azərbaycanyönlü" Telekanal tərəfindən işıqlandırılmasına etiraz ediblər. Bir çox erməni KİV-i Gürcüstanın mətbuatını azərbaycanyönlü mövqedə ittiham etmişdir.

Ermənilərin məskunlaşdığı əsasən Gürcüstanın Cavaxeti bölgəsinin sakinləri Ermənistana yük maşınlarını göndərməyə cəhd etmişlərdi. Bundan əlavə, Qarabağda azərbaycanlılara qarşı savaşmaq üçün "könüllülər" dəstələridə toplanmışdır. Həmçinin bölgədə məsknlaşan ermənilər Gürcüstan - Türkiyə sərhədində aksiya ke-

[11] Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili rəsmi "Facebook" səhfəsi.

çirmiş, "Kartsaxi" nəzarət-buraxılış məntəqəsini bağlamışlar.

Bəzi erməni QHT - ləri Gürcüstanda yerləşən səfirliklərə və konsulluqlara müraciət edərək, onları Qarabağda müharibəni dayandırmaq üçün "hərəkətə keçməyə" çağırıblar.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, Gürcüstanda yaşayan ermənilər dövlətin rəsmi mövqeyinə məhəl qoymadan Gürcüstanın strateji müttəfiqi olan Azərbaycan ilə münasibətləri pozmaq niyyətindədirlər.

Tədqiqat nəticəsində məlum oldu ki, Gürcüstanda fəaliyyət göstərən erməni təşkilatlarının Azərbaycana və azərbaycanlılara qarşı fəaliyyəti XX əsrin 90-cı illəri həm Azərbaycan, həm də Gürcüstanda separatçılıq üzərində qurulmuşdur; 2000-ci illərdə Azərbaycan və Gürcüstan arasındakı yaranmış dostluq və strateji mütəffiq münasibətləri pozmaq cəhdləri edilmişdir.

**Ədəbiyyat siyahısı**


1. Qasımlı M., Ömərov V., Məmmədova N., Həbibbəyli S., Salayev K. Gürcüstanda erməni təşkilatlarının fəaliyyəti (XIX əsr – XXI əsrin əvvəlləri). – Bakı: RS Poliqraf MMC, 2020. – 608 s.
2. Məmmədli, Ş. Paralanmış Borçalı və ya 1918-ci il Ermənistan – Gürcüstan müharibəsinin acı nəticəsi. - Bakı: Azərnəşr, 1991.
3. Məmmədova, Ş. Müasir Gürcüstanin siyasi həyatinda Azərbaycanli və erməni icmalarinin iştiraki (müqayisəli təhlil təcrübəsi). Qafqazşünaslığın aktual problemləri (məqalələr toplusu).– Bakı: ADMİU-nun mətbəəsi, 2021. s.111-157.
4. Ömərov, V. Gürcüstan-Ermənistan münasibətlərində gizlin gərginliklər // "Qafqazşünaslığın aktual problemləri" məqalələr toplusu. AMEA Qafqazşünaslıq İnstitutu. - Bakı, 2021, - s.187-197.
5. Ömərov, V. Gürcüstan-Ermənistan münasibətlərində problemlər // "Qafqazşünaslığın aktual problemləri" məqalələr toplusu. AMEA Qafqazşünaslıq İnstitutu. - Bakı, 2022, - s. 76-116.
6. Ömərov V., Kəlbizadə E., Həbibbəyli S., Məmmədova N., Salayev K. Gürcüstan: inzibati-ərazi quruluşu, idarəçiliyi və demoqrafiyası. – Bakı: MTM Innovation MMC. 2019, – 320 s.
7. Ömərov V.A., Kəlbizadə E.H., Mirzəyeva N.E. Gürcüstan: daxili ictimai-siyasi şərait. – Bakı: Mütərcim, 2018. – 168s.
8. Həbibbəyli, S. Enerji layihələri Azərbaycan – Gürcüstan münasibətlərini şərtləndirən amil kimi. Azərbaycan Respublikası 30 ildə: Cənubi Qafqazın güc mərkəzi. Respublika elmi konfransı. Tezislər. – Bakı: ADMIU-nun mətbəəsi, 2021. – s.111-112.
9. Şamıoğlu, Ş. Borçalıda etnik proseslər və millətlərarası münasibətlər (XIX-XX əsrlər). -Bakı, 1997, - 200 s.
10. Habibbayli, S. Tarihten Günümüze Borçalı Bölgesine Ermeni İddiaları ve Bölgenin Türk (Azerbaycanlı) Ahalisi. // Ermeni Araştırmaları, № 67, 2020. - s.115-136.
11. Üren, M. Çıkar ve Güç Dengesi Kıskacındaki Ahıska Türkleri Sorunu. // Üsküdar Üniversitesi Sosyal Bilimler Dergisi, 2-2. 2016
12. Cornell, Svante E. Autonomy and Conflict: Ethnoterritoriality and Separatism in the South Caucasus– Cases in Georgia. Department of Peace and Conflict Research. Report №. 61. - Uppsala. - 258 p.
13. Sordia, G. Institutions of Georgia for Governance on National Minorities. An Overview. ECMI Working Paper № 43. September 2009.
14. Арвеладзе, Б., Мибчуани, Т. Армянский батальон имени Баграмяна и этночистика Грузии Абхазии. Тбилиси: Универсал, 2009, 110 с.
15. Габиббейли, С. Армения пытается подорвать азербайджано-грузинские отношения. Журнал Наследие, № 107, с.56-62.
16. Мамедова, Н. Подрывная деятельность армян Грузии в период второй Карабахской войны / "Azərbaycan Respublikası 30 ildə: Cənubi Qafqazın güc mərkəzi" mövzusunda respublika elmi konfransının materialları. AMEA Qafqazşünaslıq İnstitutu. Bakı, 2021. с.106-108.
17. Омаров, В. Карабахский конфликт: взгляд из Грузии. // Журнал Наследие, №104, 2020, с.40-43.

18. Отчет по оценке выполнения национальной концепции толерантности и гражданской интеграции и плана действий на 2009-2014 гг. Аппарат государственного министра Грузии по вопросам примирения и гражданского равноправия, Тбилиси, 2014.
19. Чедия, Б. Конфессиональные конфликты в Грузии как латентные межгосударственные разногласия // Кавказ и Глобализация. - Том 6, выпуск 4, - 2012. – с.106-118.

## Резюме

**Назия Мамедова**

### Деятельность армянских организаций в Грузии против Азербайджана и азербайджанцев

В статье рассматривается деятельность армянских организаций в Грузии против Азербайджана и азербайджанцев. В ходе исследования было установлено, что несмотря на объявление основной целью этих организаций ускорение процесса интеграции армянского меньшинства в грузинское общество, на самом деле их деятельность направлены конфронтацию и дестабилизацию. Таким образом цель исследования – это изучение направлений армянских организаций, действующих в Грузии против азербайджанцев и Азербайджана. В ходе исследования использовались методы контент-анализа и сравнительного анализа.

***Ключевые слова:*** *армянские организации, Грузия, Азербайджан, провокации, притязания, азербайджанцы*

## Summary

**Naziya Mammadova**

### Activity of Armenian organizations in Georgia against Azerbaijan and Azerbaijanis

The article deals with the activities of Armenian organizations in Georgia against Azerbaijan and Azerbaijanis. In the course of the study it was found that despite the announcement of the main goal of these organizations to accelerate the process of integration of the Armenian minority in Georgian society, in fact their activities are aimed at confrontation and destabilization. Thus, the aim of the research is to study the directions of Armenian organizations operating in Georgia against Azerbaijanis and Azerbaijan. There are the methods of content analysis and comparative analysis at the research.

***Keywords:*** *Armenian organizations, Georgia, Azerbaijan, provocations, claims, Azerbaijanis*